


**YENİ DÖVRÜN AZƏRBAYCANI KONFRANSI**
**Anar Nağıyev**
**08.05.2026**

**Hörmətli Səməd Seyidov, Zahid Oruc, Rizvan Nəbiyev, Mahirə Hüseynova, Bahodir Xolikov, Nizami Cəfərov, hörmətli konfrans iştirakçıları**

Sizi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Yeni Dövrün Azərbaycanı" Beynəlxalq Elmi Konfransının plenar iclasında salamlayıram.

Bu gün müxtəlif ölkələri və elmi müəssisələri təmsil edən alimlərin, mütəxəssislərin və gənc tədqiqatçıların iştirakı ilə keçirilən bu beynəlxalq elmi konfrans yalnız akademik fikir mübadiləsi platforması deyil, həm də müasir Azərbaycanın inkişaf yolunun və dövlətçilik fəlsəfəsinin elmi müstəvidə təhlili baxımından mühüm əhəmiyyət daşıyan tədbirdir.

Məlum olduğu kimi, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olan Ümummilli Lider Heydər Əliyevin siyasi irsi Azərbaycanın müasir inkişaf

modelinin əsas ideoloji və strateji dayaqlarını təşkil edir. Ulu Öndərin xalqımız qarşısındakı tarixi xidmətləri milli dövlətin qurulması, dövlət müstəqilliyimizin qorunub saxlanılması, milli dövlətçilik düşüncəsinin formalaşdırılması, azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin inkişafı istiqamətində fundamental əsaslar yaratmışdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kurs nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuş, regionun lider dövlətinə çevrilmiş, beynəlxalq münasibətlər sistemində öz mövqeyini daha da gücləndirmişdir. Xüsusilə ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin tam bərpası ilə nəticələnən tarixi Zəfər ölkəmizin siyasi, iqtisadi və geostrateji imkanlarını daha da genişləndirmişdir.

Məhz bu baxımdan "Yeni Dövrün Azərbaycanı" mövzusuna həsr olunmuş beynəlxalq konfrans müasir çağırışların, yeni geosiyasi reallıqların, sosial-iqtisadi inkişaf meyillərinin və humanitar düşüncə istiqamətlərinin elmi əsaslarla təhlili üçün olduqca aktual platformadır.

**Hörmətli konfrans iştirakçıları,**

**Bakı Slavyan Universitetinin "Yeni Dövrün Azərbaycanı"** konfransının ideyası və formalaşması konsepsiyası öz başlanğıcını Ulu öndər Heydər Əliyevin siyasi irsinin öyrənilməsi və ölkə rəhbərinin bu çıxışının tələbləri üzərində qurulmuşdu. Bakı Slavyan Universitetində 2024-cü ildə keçirilən "Azərbaycanşünaslığın aktual məsələləri" konfransı yeni dövrün yaratdığı reallıqlar kontekstində müvafiq məzmunun yaradılması baxımından da keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Konfransın şüarının "Yeni Dövrün Azərbaycanı" seçilməsi, əslində konfransın keyfiyyətcə yeni mərhələsinin məntiqi keçidini şərtləndirirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda yeni dövr başlamışdı. Bu dövrün ideoloji və geosiyasi alt strukturu Vətən müharibəsindən sonra yaranmış yeni regional və geosiyasi reallıqlar

kontekstində formalaşmışdı. Burada bir çox şərtləndirici amillər yeni reallıqlar kontekstindəki zərurətlər nəzərə alınaraq, Azərbaycanın xarici siyasətindəki yenilənmiş prioritetlərlə də bağlıdır. Yeni dövrün ən mühüm məsələlərindən biri isə, təbii ki, ərazi bütövlüyü və suverenliyi bərpa edilmiş Azərbaycanın həm ideoloji, həm də xarici siyasət kontekstində hədəfləri ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Yeni Dövrün Azərbaycanı üçün "yeni ideologiya" çağırışı ölkəmizin bütün beyin mərkəzlərində olduğu kimi, Bakı Slavyan Universitetində Azərbaycanşünaslığın tədqiqatının yeni mərhələsi və formasını labüd edir. Bu baxımdan artıq üç ildir ki, BSU-da "Yeni Dövrün Azərbaycanı" şüarı altında yeni reallıqlar kontekstindəki çağırışları ölkənin aparıcı mütəxəssisləri, eləcə də ixtisaslaşmış əcnəbi tədqiqatçılar, rektorlar və digər mütəxəssislərin iştirakı ilə müzakirə edilir.

**Əziz konfrans iştirakçıları,**

"Yeni Dövrün Azərbaycanı" konfransının mahiyyəti, onun strukturu və tədqiqatlarının hədəfləri Ulu öndər Heydər Əliyevin siyasi irsinin, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yaratdığı yeni çağırışların üzərində qurulmaqla, Prezidentin 2024-cü ilin fevralında qeyd olunan çıxışındakı hədəflərin öyrənilməsi, bu hədəflərdən çıxış edərək Azərbaycan Respublikasının Ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişafının konturlarının tədqiq olunmasını hədəfləyəcəkdir. Ulu öndər Heydər Əliyevin dövlətçilik irsi və Azərbaycançılıq məfkurəsi, eləcə də Prezident İlham Əliyevin müəyyən etdiyi hədəflərin inkişafı üzrə nailiyyətlərin davamlı öyrənilməsi isə konfransın tədqiqat istiqamətlərini müəyyən etməlidir.

Konfrans beynəlxalq çəkisi, davamlı müzakirə platforması və orijinal tədqiqat nəticələrinin yaratdığı dəyərlərlə ölçülən bir platforma olmalıdır. Bu baxımdan konfrans bir günlük hadisə deyil, daha geniş müzakirə imkanlarının yaradıldığı,

burada qaldırılan məsələlərin il ərzində universitetin müxtəlif kafedralarında tədqiqat predmetinə çevrilən, Universitet laboratoriyalarında tədqiq olunan və müxtəlif seminarların təşkil edildiyi davamlı platforma olmalıdır.

Bu məqsədlə konfransın beynəlxalq əhatəliliyi təmin edildi, ilk dəfə olaraq beynəlxalq bölməsi keçirildi. Qürurluyam ki, 2023-cü ilin oktyabr ayında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş konfransımızın İstanbulun Mərmərə Universitetində keçirilən bölmə iclası həm də Bakı Slavyan Universitetinin konfranslarının yeni mərhələsini səciyyələndirirdi. Əvvəlki illərdə olduğu kimi, bu il də konfransımızın həm təşkilat komitəsində, həm redaksiya heyətində, eləcə də bugünkü plenar iclasında müxtəlif ölkələrin ali təhsil müəssisələri rektorlar, aparıcı professor-tədqiqatçılar səviyyəsində təmsil edilmişdilər. Fürsətdən istifadə edərək, bugünkü konfransımıza Özbəkistan, Türkiyə və Qazaxıstandan gəlmiş həmkarlarımızı salamlayıram.

Konfransın digər mühüm hədəfi ölkə daxilində və xaricində əhatəliliyinin genişləndirilməsi oldu. Əhatəlilik həm coğrafi, həm də auditoriyanın seçilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Beləliklə, konfransımızın ideyalarını Naxçıvan, Quba, Lənkəran, Gəncə, Qazax və digər şəhərlərimizdə yüzlərlə ali və orta təhsil işçiləri ilə müzakirə etdik, Bolqarıstan, Türkiyə, Polşa, Albaniya kimi ölkələrin aparıcı ali təhsil müəssisələrində "Yeni Dövrün Azərbaycanı- etibarlı tərəfdaş" mövzusunda rektorun seminarları keçirildi, müzakirələr təşkil edildi. Ümumilikdə 300 nəfərdən çox professor və tələbəni əhatə edən bu seminarların Azərbaycan reallıqlarının anlaşılması baxımından mühüm əhəmiyyət kəsb etdiyinə inanıram. Son iki il ərzində Astaranın Sərək kəndindən Qubanın Alekseyevka kəndinə qədər, Naxçıvanın Heydərabad qəsəbəsindən Bakının Nəsimi rayonunadək ölkəmizin müxtəlif kənd və şəhərlərində 3000 nəfər şagirdi əhatə etməklə "Yeni Dövrün Azərbaycanı" mövzusunda rektorun şagirdlərlə seminarları keçirilmişdi.

**Hörmətli alimlər və tədqiqatçılar!**

Konfrans çərçivəsində fəaliyyət göstərən bölmələr müasir Azərbaycanın prioritet istiqamətlərini əhatə edən mühüm mövzular üzrə təşkil edilmişdir.

**“Heydər Əliyev ideyaları və yeni dövrün Azərbaycanı”** bölməsində Ümummilli Liderin dövlətçilik fəlsəfəsi, azərbaycançılıq məfkurəsi, milli ideoloji əsaslar, təhsil siyasəti və gənclərin vətənpərvərlik ruhunda formalaşdırılması məsələləri geniş şəkildə təhlil olunmuşdur. Bu bölmədə səsləndirilən fikirlər bir daha təsdiq edir ki, Heydər Əliyev irsi yalnız tarixi keçmişin deyil, həm də Azərbaycanın gələcək inkişafının strateji istiqamətlərini müəyyən edən mühüm ideoloji xəttdir.

**“Azərbaycan Respublikasının yeni inkişaf paradiqması: siyasi, iqtisadi və sosial aspektlər”** bölməsində rəqəmsal transformasiya, innovasiya əsaslı iqtisadiyyat, yaşıl inkişaf, enerji təhlükəsizliyi və sosial siyasət məsələləri üzrə məhsuldar elmi müzakirələr aparılmışdır. Bu müzakirələr göstərir ki, Azərbaycan müasir dünyada qlobal çağırışlara adekvat cavab verən çevik və dayanıqlı inkişaf modeli formalaşdırmaqdadır.

**“Qarabağ Zəfəri fonunda Cənubi Qafqazda yeni geosiyasi reallıqlar” bölməsi** xüsusi aktuallığı ilə seçilmişdir. Bölmə çərçivəsində postmüharibə dövründə regionda yaranmış yeni siyasi vəziyyət, milli təhlükəsizlik məsələləri, regional əməkdaşlıq perspektivləri və Böyük Qayıdış proqramı geniş elmi təhlilə cəlb olunmuşdur. Azərbaycanın əldə etdiyi tarixi Zəfərin regionda uzunmüddətli sülh və sabitlik üçün yeni imkanlar yaratdığı xüsusi vurğulanmışdır.

**“Qərbi Azərbaycan: tarixi-hüquqi reallıqlar, çağırışlar və perspektivlər” bölməsində** isə tarixi yaddaşın qorunması, milli kimlik məsələləri, deportasiya prosesləri və mədəni irsin tədqiqi istiqamətində mühüm elmi yanaşmalar təqdim edilmişdir. Bu istiqamətdə aparılan araşdırmaların beynəlxalq elmi ictimaiyyətə çatdırılması mühüm vəzifələrdən biri kimi qiymətləndirilmişdir.

**“Humanitar və ictimai elmlərdə metodoloji yeniliklər və inteqrasiya modelləri” bölməsində** isə rəqəmsal humanitar elmlər, süni intellekt texnologiyalarının təhsil və tədqiqat prosesinə tətbiqi, interdisiplinar elmi yanaşmalar və metodoloji yeniliklər geniş müzakirə edilmişdir. Müasir dövrdə elmin inkişafının innovativ yanaşmalar və beynəlxalq inteqrasiya olmadan mümkün olmadığı xüsusi qeyd edilmişdir.

**Hörmətli konfrans iştirakçıları!**

Bu gün dünya sürətlə dəyişir. Yeni texnologiyalar, rəqəmsal transformasiya, qlobal siyasi və iqtisadi proseslər elm qarşısında yeni vəzifələr müəyyənləşdirir. Belə bir dövrdə universitetlərin, elmi-tədqiqat müəssisələrinin və alimlərin üzərinə mühüm məsuliyyət düşür. Elmi fəaliyyət yalnız nəzəri biliklərin istehsalı ilə məhdudlaşmamalı, eyni zamanda dövlətin və cəmiyyətin inkişaf prioritetlərinə xidmət etməlidir.

Əminəm ki, konfrans çərçivəsində təqdim olunan elmi məruzələr, aparılan müzakirələr və irəli sürülən təkliflər gələcək elmi araşdırmalar üçün mühüm mənbə olacaq, müasir Azərbaycanın inkişaf istiqamətlərinin daha dərindən öyrənilməsinə xidmət edəcəkdir.

Sonda konfransın təşkilində əməyi olan hər kəsə — Təşkilat Komitəsinə, Redaksiya Heyətinə, moderatorlara, könüllülərə və bütün iştirakçılara təşəkkürümü bildirir, plenar iclasın uğurlu keçməsini arzulayıram.